**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə**

**Kredit Nö.: 4394AZ**

Azərbaycan Hökuməti Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (bundan sonra TSİİL) xərclərini ödəmək məqsədilə Dünya Bankından maliyyə vəsaiti almışdır. Həmin vəsaitin bir hissəsinin məsləhətçi xidmətlərinə sərf edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeni kurikulumu Azərbaycan Respubikası Təhsil Nazirinin 10 iyul 2012-ci il tarixli əmri ilə təsdiq edilmişdir. Növbəti tədris ilindən məktəbəqədər təhsildə yeni təsdiq edilmiş kurikulumun tətbiqi məqsədilə bütün dövlət məktəbəqədər təhsil müəssisələrinin müvafiq tərbiyəçiləri üçün təlimlər planlaşdırılır. Bu məqsədlə Azərbaycan Respublikasının Təhsil Nazirliyi qeyd olunan təlimlərin keçirilməsində iştirak etmək istəyən məsləhətçi təşkilatları aşağıda göstərilmiş müqavilələr üzrə xidmətlərin göstərilməsinə maraqlarını ifadə etməyə dəvət edir:

1. *Müqavilə Nö. 4394AZ-QCBS-235:* **Abşeron** iqtisadi rayonunda məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri üçün yeni məktəbəqədər təhsil kurikulumu üzrə təlim;

2. *Müqavilə Nö. 4394AZ-QCBS-236:* **Dağlıq Şirvan, Quba-Xaçmaz və Şəki-Zaqatala** iqtisadi rayonlarında məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri üçün yeni məktəbəqədər təhsil kurikulumu üzrə təlim;

3. *Müqavilə Nö. 4394AZ-QCBS-237*: **Gəncə-Qazax və Yuxarı Qarabağ** iqtisadi rayonlarında məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri üçün yeni məktəbəqədər təhsil kurikulumu üzrə təlim;

4. *Müqavilə Nö. 4394AZ-QCBS-238:* **Aran və Lənkəran** iqtisadi rayonlarında məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri üçün yeni məktəbəqədər təhsil kurikulumu üzrə təlim.

**Xidmətlərin icra müddəti:** iyun-dekabr 2013-cü il

- Xidmətlərə maraq göstərən məsləhətçi təşkilatlar Maraq İfadələrini hər bir müqavilə üzrə ayrıca təqdim etməklə müvafiq ixtisas və təcrübə tələblərinə cavab verdiklərini təsdiq edən aşağıdakı məlumatları və sənədləri təqdim etməlidirlər:
- müraciət məktubu;
- yerinə yetirilmiş müvafiq xidmətlərin təsviri;
- müvafiq bacarıq və təcrübəyə malik olan heyət haqqında məlumat;
- nizamnamə.

**Məsləhətçi təşkilatların ixtisas uyğunluğunu və təcrübəsini qiymətləndirmək üçün meyarlar:**

- Nizamnaməsinə uyğun olaraq, təşkilatın fəaliyyət istiqamətləri arasında insan resurslarının inkişafı və ya təlimlərin olması;
- Müəllimlər üçün təlim kurslarının keçirilməsində iş təcrübəsi;
- Məktəbəqədər təhsil müəssisələri ilə birgə layihələrin həyata keçirilməsi sahəsində iş təcrübəsi.

Məsləhətçi təşkilatlar ixtisas uyğunluğunu gücləndirmək məqsədilə digər təşkilatlarla birgə müəssisə və yaxud sub-məsləhətçi formasında assosiasiya yarada bilərlər.

Məsləhətçi təşkilatların seçimi Dünya Bankının " Borcalanlar tərəfindən Məsləhətçilərin Seçimi və İşə Götürülməsi Qaydaları"nda (2004-cü ilin may ayında nəşr edilmiş, 2006-cı ilin oktyabr ayında düzəliş edilmiş Qaydalar) əks olunan *Keyfiyyət və Dəyərə Əsaslanmış Seçim* metodu ilə aparılacaqdır. Xidmətlərə maraq göstərən məsləhətçi təşkilatlardan xahiş olunur ki, qeyd olunan Qaydaların 1.9 paraqrafına (Maraqların Ziddiyyəti) diqqət yetirsinlər.

Maraqların İfadəsi yazılı şəkildə **2013-cü il yanvarın 31-dək** aşağıdakı ünvana təqdim edilməlidir:


Layihənin Əlaqələndirmə Qrupu,

Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə,

Azərbaycan Respublikasının Təhsil Nazirliyi,

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.

Əlaqələndirici şəxs: Elvin Rüstəmov

Əlaqə telefonları: 496-37-59, 496-37-60; faks: 496-93-68.

Email: erustamov@ultel.net


Əlavə məlumatları iş günləri ərzində saat 09.00-dan 18.00-dək eyni ünvandan əldə etmək olar.